**Kod:** 226

**BSQ Ədəbiyyat**

1. M.Ə.Sabirin şeirlərini mövzusuna görə məntiqi ardıcıllığı davam edirin. “Dindirir əsr bizi”, “Millət şərqisi”, “Oxutmuram əl çəkin!”, ___ .
   - “Əkinçi”
   - “Bakı fəhlələrinə”
   - “Neylərdin, ilahi?!”
   - “Bizə nə?”
   - “Uşaqdır”

2. M. Ə. Sabirin Yaxın və Orta Şərq ölkəsində qüdrətli xalq şairi kimi şöhrət tapmasında hansı mətbuat orqanı xüsusi rol oynamışdır?
   - “Açıq söz”
   - “Füyuzat”
   - “Zənbur”
   - “Babayi-əmir”
   - “Molla Nəsrəddin”

3. H.Cavidin “İblis” pyesində Rənanın atasının qatili:
   - Elxan
   - Yaralı zabit
   - Arif
   - İbn Yəmin
   - İxtiyari qoca

4. M.Cəlalın yaradıcılığında rast gəlmək olmaz?
   - Povestə
   - Oçerkə
   - Avtobioqrafik romana
   - Poemaya
   - Monoqrafiyaya

5. İ.Şıxlının yaradıcılığı ilə bağlı səhv fikri müəyyən edin
   - Nəşr olunan ilk əsəri “Quşlar” şeiridir
   - Lirik, epik, dramatik növlərdə yazıb
   - Yaradıcılığında müharibə mövzusu da yer alıb
   - Yaradıcılığında roman janrı mühüm yer tutur
   - Yaradıcılığının şah əsəri “Dəli Kür” romanıdır

6. Aşağıdakı şeirlərin birində M. Ə. Sabirin azadlıq duyğuları ifadə olunmuşdur.
   - “İstiqlalımız lağlağıdır”
   - “Dindirir əsr bizi”
   - “Oxutmuram əl çəkin”
   - “Müəllimlər syezdi”
   - “Amalımız, əfkarımız vətəndir”

7. Mollanəsrəddinçilərlə bağlı doğru cavabı seçin: 1.Tənqidi realizmin nümayəndələri idi. 2. Azərbaycan ədəbiyyatına felyeton, satirik marş, tragikomediya kimi yeni janrlar gətirdilər. 3.H.Cavid, M.Hadi, A.Səhhət, Ə.Hüseynzadə və s. bu ədəbi məktəbin nümayəndələri idi. 4.Dil-üslubları xalq dilinə yaxın idi. 5.Onlar alınma sözlər işlətməyə daha meyilli idilər.
- 1,3,5
- 2,4,5
- 2,5
- 2,3
- 1,2,4

8. R.Rzanın "Qızılıgül olmayaydı" poemasında M.Müşfiqin bir məclisdə oxuduğu hansı şeirin adı çəkilir?
- "Bir may"
- "Küləklər"
- "Oxu tar!"
- "Günün səsləri"
- "Vuruşmalar"

9. B.Vahabzadə hansı ədəbiyyatın nümayəndəsi hesab olunur?
- Represiya
- Mühacirət
- Milli istiqlal
- Sovet ədəbyyatı( 1930-1940 cı illər)
- Xalq cumhuriyyəti

10. İ.Şıxlının "Dəli Kür" romanındakı hansı obrazla bağlı fikir yanlışdır?
- Cahandar ağa-başqasından tələb etdiyi namus və qeyrətin timsalı ola bilmir
- Şamxal-qürurlu əyilməz cəsarətli bir gəncdir
- Zərnigar-hiyləgər, yaltaq, xəyanətkar obrazdır
- Molla Sadıq-yeniliyin, təhsilin əleyhdarı kimi əks etdirilib
- Əşrəf-yeniliyi təcəssüm etdirən gəncliyin nümayəndəsidir

11. Cahandar ağa obrazı ilə bağlı ( İ.Şıxlı "Dəli Kür" )doğru fikirləri seçin: 1. Cahandar ağa bütün qüsurlarına baxmayaraq, oxucuda rəğbət doğuran romantik obrazdır. 2.Cahandar ağa çar məmurları ilə qarşılaşmada əyilməzliyi ilə xalqımıza xas olan mənəvi dəyərləri təcəssüm etdirir. 3. Cahandar ağa başa düşür ki, artıq əvvəlki həyat tərzinin sonu çatmışdır, onun üçün ölən dünyada yaşamağın bir mənası qalmamışdır. 4. Cahandar ağanın faciəsinin əsl səbəbi də ailədən, övladından, xalqdan, millətdən uzaq düşməyindədir. 5. Cahandar ağanın faciəli taleyini qələmə almaqla milli ruhla aşılanmış, milli dəyərləri əks etdirən qiymətli bir roman yazılmışdır.
- 1,2,5
- 1,2,4
- 3,4,5
- 2.3.5
- 2,4,5

12. İ.Şıxlınının "Dəli Kür" əsərinə aid edilə bilməz:
- Xalq adət-ənənələrinin təsvirinə geniş yer verilir
- Əsəri cəbhədə apardığı qeydləri əsasında yazıb
- Doğma təbiət obraz səviyyəsinə qaldırılır
- Epik miqyaslı tarixi romandır
- Güclü müasirlik duyğusu ilə yazılmışdır

13. Sovet dövrü Azərbaycan ədəbiyyatında əsas qəhrəman səviyyəsində təqdim edilirdi?
- fəhlə-kəndli
- bəy-ağa
- xalq
- əsgərlər
- kommunistlər

14. “İblis” faciəsində bir-birinə zidd mövqedə dayanan surətlər hansılardır?
- Arif-Vasif
- Mələk-İblis
- Rəna-Xavər
- İbn Yəmin-Teyf
- Elxan-Arif

15. M.Ə.Sabir hansı mətbuat orqanında “Palanduz” sərlövhəli gülüş səhifəsində satirik şeirlərini çap etdirmişdir?
- “Molla Nəsrəddin”
- “Həyat”
- “Zənbur”
- “Günəş”
- “Şərqi-rus”

16. C.Məmmədquluzadənin pyeslərini müəyyən edin: 1. “Kamança” 2. “Danabaş kəndinin məktəbi” 3. “Ölülər” 4. “Qəza müxbiri” 5. “Danabaş kəndinin əhvalatları”
- 1,2,4
- 1,3,5
- 2,4,5
- 1,2,3
- 2,3,4

17. Biri C.Məmmədquluzadənin “Anamın kitabı” tragikomediyasının personajları sırasında verilə bilməz.
- Zivər xanım
- Aslan bəy
- İsgəndər bəy
- Səməd Vahid
- Gülbahar

18. Ə. Cavadın “Səsli qız” əsəri ilə bağlı yanlış fikri seçin:
- Saranın nişanlısı döyüşdə düşmən ordusu tərəfindən oxlanıb öldürülür
- Əsərdə vahid süjet xətti yoxdur, müstəqil hissələrdən ibarətdir
- Saranı qalib şahın yanına planlı olaraq göndərirlər ki, şahı zəhərləsin
- Padişahın ölümündən sonra xalq üsyan edir, işğalçıları qovur
- Poemanın əsas ideyası vətənin müdafiəsi, xalqın azadlığıdır

19. C.Məmmədquluzadənin “Anamın kitabı” tragikomediyası ilə bağlı doğru olanları qeyd et:1. Qardaşların tutduqları yolun birləşməyəcəyinin aydınlaşdığı hissə əsərin kulminasiya nöqtəsidir. 2. Son məclisdə qardaşlar peşman olduqlarını dilə gətirirlər. 3. Qardaşlar təhsil aldıqları ölkənin dilinə uyğun sözlərdən istifadə edirlər. 4. Əsərin əvvəlində obrazlar haqda məlumat verilən hissə bədii müqəddimə sayıla bilməz. 5. Rüstəm bəy qardaşlarına məsləhət görür ki, görəcəkləri işi ağıl və məsləhətlə etsinlər
- 1,3,5
- 2,3,4

- 1,2,4
- 2,3,5
- 1,2,3

20. "Qızılgül olmayaydı" (R.Rza) poemasında “nadir hədiyyən” deyərkən müəllif nəyi nəzərdə tuturdu?
    - Müəllifin Müşfiqlə dostluğu
    - Dilbər kimi həyat yoldaşını
    - Müşfiqlə olan xatirə şəklini
    - Dilbərin gələrkən olan səssizliyi
    - Müşfiqin görüşə gəlməməsi

21. M.Ə.Sabirin məktəb, maarif mövzusundakı ən məşhur satirası hansıdır?
    - “Səttərxana”
    - “Oxutmuram,əl çəkin”
    - “Ürəfa marşı”
    - “Nə işim var?!”
    - “Müəllimlər syezdi”

22. Bu əsərlərdən birində xalq məişətinin, el adət-ənənələrinin təsvirinə geniş yer verilmişdir?
    - M.Şəhriyar “Heydərbabaya salam”
    - R.Rza “Qızılgül olmayaydı”
    - B.Vahabzdə “Latın dili”
    - S.Vurğun “Aygün”
    - S.Rüstəm “Təbrizim”

23. Mir Cəlalın həyat və yaradıcılığı ilə bağlı hansı fikir doğru deyil?
    - 26 aprel 1908-ci ildə Cənubi Azərbaycanda anadan olub
    - 100 illik yubileyi YUNESKO səviyyəsində qeyd olunmuşdur
    - Hekayələrində yumor üstünlük təşkil edir
    - Yaşıdlarım romanı avtobioqrafik əsəri hesab olunur
    - Ali təhsilini Bakıda, aspirantura təhsilini isə Kazanda almışdır

24. İ. Əfəndiyevin avtobioqrafik xarakterli əsərlərini müəyyən edin.
    - “Üçatılan”, “Geriyə baxma qoca”
    - “Büllur sarayda”, “Unuda bilmirəm”
    - “Söyüdlü arx”, “Körpüsalanlar”
    - “Mahnı dağlarda qaldı”, “İntizar”
    - “Sarıköynəklə Valehin nağılı”, “Dağlar arxasında”

25. S.Vurğunun şeir kitablarını yazılma ardıcıllığı ilə düzün: 1.Şeirlər, 2.Könül dəftəri, 3.Fanar, 4.Şairin andı.
    - 3,2,4,1
    - 1,2,3,4
    - 4,3,2,1
    - 2,4,1,3
    - 4,2,3,1

26. İblis" faciəsi ilə bağlı yanlış fikirdir:
    - İbn Yəmin heç kəsdən aman diləmir.
    - İblis insanların iradəsizliyinə sevinir.
    - Arifi qatilə, silah və altun hərisinə çevrilir.

- Rəna atasının qatilini tapana səcdə edəcəyini deyir.
- İbn Yəmin həbs edilən an Rəna otaqda deyildi.

27. "Türkün dili" (M.H.Şəhriyar) qəzəlinin bədii forması ilə bağlı səhv fikri müəyyən edin.
    - Dilimizin sıxışdırıldığı dövrdə yazılmışdır.
    - Aid olduğu janrın bütün tələblərinə cavab verir.
    - Ciddi mətləblərə toxunulmuş taleyüklü problemlər qaldırılməşdır.
    - Başdan-başa yalnız zəngin qafiyələrlə yazılmışdır.
    - Mətlə beyti qitə kimi qafiyələnməyib.

28. Cəlil Məmmədquluzadənin ölkənin taleyi ilə bağlı demokratik mövqeyini əks etdirən məqalələri hansılardır?
    - "Azərbaycan", "Cumhuriyyət"
    - "Qəza müxbiri", "Ucuzluq"
    - "İranda hürriyət", "Poçt qutusu"
    - "Sirkə", "Şeir bübülləri"
    - "Usta Zeynal", "Molla Fəzəli"

29. "Neylərdin, ilahi?!" (M.Ə.Sabir) satirası əruz vəzninin hansı bəhrində yazılmışdır?
    - Münsərih
    - Rəməl
    - Rəcəz
    - Müctəz
    - Həzəc

30. "___ türkçülük və turançılıq ideyalarının əsas ədəbi cəbbəxanasını təşkil etmişdir." Nöqtələrin yerinə uyğun gələn mətbuat orqanının adını qeyd edin.
    - "Füyuzat" jurnalı
    - "Əkinçi" qəzeti
    - "Kəşkül" qəzeti
    - "Molla Nəsrəddin" jurnalı
    - "İrşad" qəzeti

31. B.Vahabazadənin poemaları olan variantı göstərin.
    - "Yağışdan sonra", "Kəpənək"
    - "Muğam", "Fəryad"
    - "Şəbi hicran", "Dar ağacı"
    - "Ağlar güləyən", "Xəzan bülbülü"
    - "Yollara iz düşdü", "Təzadlar"

32. Kəndlinin dözülməz yaşayışı, mülkədar-bəy zülmü Sabirin hansı əsərlərində öz əksini tapmışdır?
    - "Ağlaşma uşaqdır"
    - "Bizə nə?!", "Dilənçi"
    - "Əkinçi", "Səbr eylə"
    - "Hə,de görüm", "İstikbalımız lağlağıdır"
    - "Bakı fəhlələrinə", "Fəhlə, sən də özünü bir insanmı sanırsan?"

33. M.Ə.Sabirin satiralarında bəzən süjeti əmələ gətirir:
    - Kinayələr
    - Dialoqlar
    - Monoloqlar
    - Nağılvarilik

- İctimai ziddiyyətlər

34. C.Məmmədquluzadənin tərcümeyi-halına dair verilənlərdən biri səhvdir:
    - 1933-cü ildə vəfat edir və Naxçıvanda dəfn olunur
    - 22 fevral 1869-cu ildə Naxçıvanda anadan olmuşdur
    - 1882-1887-ci illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır
    - Müəllimliyə 1887-ci ildə İrəvan quberniyasının Uluxanlı kəndində başlamışdır
    - 1897-1903-cü illər arasında Naxçıvan və İrəvan hüquq orqanlarında fəaliyyət göstərmişdir

35. Maarifçi realistlər: 1.N.Nərimanov, 2.S.M.Qənizadə, 3.Ə.Haqverdiyev, 4.S.S.Axundov, 5.Ö.F.Nemanzadə, 6.R.Əfəndiyev, 7.Ə.Q.Naxçıvanlı, 8.A.Divanbəyoğlu.
    - 4,5,7,8
    - 3,4,5,8
    - 1,4,5,7
    - 2,4,6,7
    - 1,2,4,6

36. M.Ə.Sabir yaradıcılığına aid edilə bilməz:
    - qoşma
    - qəzəl
    - uşaq şeirləri
    - satira
    - mərsiyə

37. M.Şəhriyar yaradıcılığının ilk dövrlərində şeirlərini hansı təxəllüslə yazmışdır?
    - “Behçəti”
    - “Gülçin”
    - “Molla”
    - “Seyid”
    - “Hüseyni”

38. S. Vurğunun pyeslərini yazılma ardıcıllığı ilə düzün: 1.“Fərhad və Şirin”, 2.“İnsan”, 3.“Vaqif”, 4.“Xanlar”.
    - 3,4,2,1
    - 4,3,2,1
    - 3,4,1,2
    - 1,2,3. 4
    - 3,1,4,2

39. Bu əsərlərdən biri R.Rzanın müharibə mövzusunda yazdığı poemadır:
    - “Almaniya”
    - “Min dörd yüz on səkkiz”
    - “Bəxtiyar”
    - “Haray dostlar”
    - “Cəlladları durdur”

40. Azərbaycan ədəbiyyatında sərbəst vəzn onun adı ilə bağlıdır.
    - S.Rüstəm
    - S.Vurğun
    - C.Cabbarlı
    - R.Rza

- M.Müşfiq

41. B.Vahabzadənin hansı əsərləri həm simvolik, həm də müstəqim məna daşıyır?
    - Nəsrlə yazdığı dramları
    - Sovet dövründə yazdığı poemaları
    - Mənzum dramları
    - Tələbə ikən yazdığı şeirləri
    - Müstəqillik dövründə yazdığı şeirləri

42. C.Məmmədquluzadənin yaradıcılığını oxuyan şagird onun yaradıcılığında hansı janrlarda əsərə nümunə tapa bilməz? 1. Felyeton 2. Povest 3. Hekayə 4. Poema 5. Mənzum hekayə
    - 1,5
    - 2,3
    - 3,5
    - 4,5
    - 1,4

43. "Xurşidbanu Natəvan" (İ.Əfəndiyev) əsərindən verilən bu sözləri Muradalı kimə deyir? "Yenə şükür ki, qaçıb canını qurtarmısan, xalaoğlu ___ Deyirəm, görəsən, bu Şimali Azərbaycan olmasaydı, biz cənublular İran şahının zülmündən hara qaçardıq ___"
    - Knyaz Xasaya
    - Zahir bəyə
    - Seyid Hüseynə
    - Daşdəmirə
    - Hidayət xana

44. Adaları çəkilən əsərlərdən birinin müəllifi Cəlil Məmmədquluzadədir.
    - "Səsli qız"
    - "Çay dəstgahı"
    - "Dəli Kür"
    - "Gün var əsrə bərabər"
    - "Oqtay Eloğlu"

45. Cəlil Məmmədquluzadənin publisistikası hansı xüsusiyyətinə görə ədəbi və ictimai fikrin inişafında mühüm rol oynamışdır?
    - Cəmiyyətdə mövcud olan ictimai-siyasi problemləri obyektiv mövqedən işlandırmışdır
    - Vətəndaş-ziyalı mövqeyinin çətinliklərini və üstünlüklərini göstərmişdir
    - Yaradıcılığında sovet hakimiyyətinin ədalətli siyasət həyata keçirdiyini vurğulamışdır
    - Azərbaycan qadınının azad, sözünə dəyər verilən və firavan həyat yaşadığını göstərmişdir
    - Bürokratizm, süründürməçiliyi,vətəndaşlara qarşı laqeydliyi təbliğ etmişdir

46. Ə.Cavadın "Səsli qız" poemasının baş qəhrəmanı kimdir?
    - hökmdar
    - Sara
    - din xadimi
    - Arqun
    - varlı adamlar

47. Azərbaycan ədiblərinə həsr olunmuş poemalardan birinin müəllifi R.Rza deyil:
    - "Füzuli
    - "Son gecə"

- “Qızılgül olmayaydı”
- “Xalq şairi”
- “Xəzan bülbülü”

48. Sovet hakimiyyəti illərində yaranan bədii əsərlərdə qələm sahibləri ideoloji tələblərə uyğun olaraq hansı prinsipə əməl etməli olmuşdurlar?
- Millilik
- Vətənpərvərlik
- Dahi-rəhbər
- Sinfilik
- Mənəvilik

49. M.Ə.Sabirin müəllimi olmuş, onun bədii yaradıcılığa istiqamətləndirilməsində böyük rolu olan sənətkar:
- M.Ə.Möcüz
- A.Səhhət
- S.Ə.Şirvani
- C.Məmmədquluzadə
- M.Ş.Vazeh

50. C.Məmmədquluzadənin tərcümeyi-hal faktlarının düzgün ardıcıllığını müəyyənləşdirin: 1.Qori Müəllimlər Seminariyasında təhsil almışdır. 2.İrəvan və Naxçıvanda hüquq orqanlarında çalışmışdır. 3.Baş Noraşendə müəllimlik etmişdir. 4.Tiflisdə “Şərqi-Rus” qəzetinin redaksiyasında çalışmışdır.
- 2,3,4,1
- 1,3,2,4
- 4,2,1,3
- 2,4,3,1
- 3,1,4,2

51. “Oqtay Eloğlu” əsərindəki hadisələrin ardıcıllığını göstərin: 1.Oqtay üzüyünü satıb, tamaşanın oynayacağı mənzilin kirayəsinə verir 2.Firəngizin Oqtaya olan sevgisini dilə gətirməsi 3.Firəngizin Amalya rolunda Oqtayın qarşısına çıxması 4.Tamaşa haqqında çıxan məqalənin müzakirəsi 5.Oqtayın sürgündən qayıtması və bacısı Sevərlə qarşılaşması.
- 1,2,4,5,3
- 1,3,5,4,2
- 5,4,3,2,1
- 2,3,5,4,1
- 3,1,2,4,5

52. Biri sovet dövrü Azərbaycan ədəbiyyatı nümayəndələri sırasında verilə bilməz.
- C.Cabbarlı
- S.Rüstəm
- M.Şəhriyar
- R.Rza
- S.Vurğun

53. Represiya ədəbiyyatının nümayəndələri verilmiş variantı müəyyən edin: 1.H.Cavid, 2.R.Rza, 3.Ə.Cavad, 4.S.Rüstəm, 5.M.Gülgün, 6.M.Müşfiq.
- 1,3,6
- 2,4,5
- 1,2,4
- 3,6
- 1,4,6

54. C.Cabbarlının həyat və yaradıcılığı haqqında verilənlərdən biri yanlışdır:
- 1915-ci ildə nəşr olunan “Açıq söz” qəzetinin redaktoru olmuşdur
- İlk mətbu əsəri 1915-ci ildə “Məktəb” jurnalında dərc olunan “Bahar” şeiridir
- 1920-ci ildə yaradılmış “Gənc müsavatçılar” təşkilatının baş katibi seçilmişdir
- Satirik şeirlərində M. Ə. Sabir ənənəsinin davamçısıdır
- 1934-cü il dekabrın 31-də vəfat etmişdir

55. H.Cavidin həyat və yaradıcılığı ilə bağlı səhv cavabı göstərin:
- Həzəc bəhrinin yeni növünü yaratmışdır
- İlk şeirlərini “Gülçin” təxəllüsü ilə yazmışdır
- Mənzum faciənin əsasını qoymuşdur
- 1941-ci ildə Bakıda vəfat etmişdir
- 1882-ci ildə Naxçıvanda anadan olmuşdur

56. İ.Əfəndiyevin tarixi mövzuda olan pyeslərini göstər: 1.“Mahnı dağlarda qaldı” 2.“Atayevlər ailəsi”, 3.“Şeyx Xiyabani”, 4.“Hökmdar və qızı”, 5.“Məhv olmuş gündəliklər”, 6.“Büllur sarayda”.
- 2,4,5
- 2,5,6
- 1,3,6
- 1,3,4
- 3,5,6

57. C.Məmmədquluzadənin "Anamın kitabı" əsərinin məzmunu ilə bağlı yanlış fikirləri seçin. 1. Əsərin sonunda Gülbahar atasının öz əli ilə yazdığı vəsiyyəti qardaşlarına oxuyur. 2. Gülbaharın rəmzi sualını hambal anlayır və ona uyğun da cavab verir. 3. Qardaşların üçü də analarına etiraf edirlər ki, bağlı olduqları kitablar fərqli olduğu üçün onlar yola gedə bilməzlər. 4. Senzor yalnız bir qardaşın kitabında kiçik də olsa nöqsan tapsa da, bunu görməzdən gəlir. 5. Zəhrabəyim ana Gülbaharın gələcək taleyi ilə bağlı narahat olsa da, onu evləndirməyə çalışmırdı.
- 2, 4, 5
- 1, 3, 5
- 2, 3, 4
- 1, 2, 5
- yalnız 4, 5

58. H.Cavidin Ə.Firdovsinin “Şahnamə” əsərinin motivlərinə müraciət edərək qələmə aldığı əsər hansıdır?
- “Azər”
- “Hübuti-Adəm”
- “Səyavuş”
- “Çoban türküsü”
- “Ana”

59. Mir Cəlalın ibrətamiz öyüdlər təsiri bağışlayan hekayələri hansı bənddə verilib:
- “Söyüd kölgəsi”, “Qonaqpərəst”
- “Vicdan əzabı”, “ Şaftalı söhbəti”
- “Ləyaqət”, “İnsanlıq fəlsəfəsi”
- “Elçilər qayıtdı”, “Bostan oğrusu”
- “Pillələr”, “Xoşbəxtlik barəsində”

60. İ.Sıxlının "Dəli Kür" əsərinə əsasən yanlış fikri seçin:
- Allahyar düşmənlə açıq döyüşdən çəkinən, mənəviyyatsız obrazdır.
- Zərnigar xanımla Mələyin öncədən ədavəti olur.

- Cahandar ağa və onun ailəsinin keşməkeşli həyatı, qarşılaşdığı maneələr şəxsi mahiyyət daşımır.
- Mələyi qaçırdığına görə Zərnigar xanım Cahandar ağadan qisas amağa çalışır.
- Oğlu Şamxalın etdiklərində özünün də günah payının olduğunu Cahandar ağa dərk edirdi.

61. C.Cabbarlının "Ana" şeirinin məzmunu haqqında fikirlərdən birini əminliklə demək olmaz:
    - Lirik qəhrəman başına gələcək hadisənin fəlakət belə olmasına razıdır, təki bu anasının əli ilə olsun.
    - Yalnız anasının lirik qəhrəmanı bağrına basması ona təsir edib vücuduna əsər edə bilər.
    - Lirik qəhrəman belə düşünür ki, bəşəriyyətin ona düşmən olması onun halını dəyişməz.
    - Lirik qəhrəman cəlladın onu ölüm ilə hədələməsindən qorxmur.
    - Lirik qəhrəman heç kimin ayağına yıxılmaz, qarşısında baş əyməz.

62. Rübabə obrazına aid hansı doğru fikirlər Vahid obrazı üçün yanlış fikirdir ("Açıq kitab")? 1. Gəldiyevlə münasibəti yaxşı deyil. 2. İnstitutdan atılmır. 3. Əsərin müsbət qəhrəmanıdır 4. Atası tarzəndir. 5. Onun mənəvi dünyasının, fikir və hisslərinin təsvirinə əsərdə geniş yer verilib.
    - 2,4,5
    - 1,5
    - 2,4
    - 2,3
    - 2,3,4

63. "Dəli Kür" (İ. Şıxlı) əsərində Cahandar ağanın faciəsinin səbəbləri nədir? 1. Seminariyadan gələn müəllimin planları 2. Tarixi hadisələrin gedişi 3. Oğlu Əşrəfin evdən getməsi 4. Şəxsi həyatı ilə bağlı verdiyi qərarlar
    - 2,4
    - 3,4
    - 1,3
    - 2,3
    - 1,2

64. Biri Çingiz Aytmatovun əsərləri sırasında verilə bilməz:
    - “Gün var əsrə bərabər”
    - “Cəmilə”
    - “Əlvida Gülsarı”
    - “Ağ gəmi”
    - “Cəbhə gündəliyi”

65. C.Məmmədquluzadə bədii yaradıcılığa nə vaxt və harada başlamışdır?
    - 1922-30-cu illərdə, Bakıda yaşadığı dövrdə
    - XX əsrin əvvələrində, Tiflisdə “Molla Nəsrəddin” jurnalının redaktoru olarkən
    - XIX əsrin sonlarında, Qori seminariyasında oxuduğu illərdə
    - XX əsrin əvvələrində, Təbrizdə olarkən
    - XIX əsrin sonunda,Naxçıvanda, Baş Noraşen məktəbində müəllim işləyərkən

66. M. Ə. Sabir bədii portret yaratmaq qabiliyyətini hansı sahədə ustalıqla nümayiş etdirmişdir?
    - Mənzum hekayələrində
    - Satirik şeir yaradıcılığında
    - Uşaq şeirlərində
    - İctimai-siyasi şeirlərində
    - Qəzəllərində

67. Məntiqi ardıcıllığı tamamlayın: H. Cavid, M. Hadi, A. Səhhət ___ .
- A.Şaiq
- C.Məmmədquluzadə
- Ö.F.Nemanzadə
- M.Ə.Sabir
- Ə.Nəzmi

68. Mir Cəlalın yaradıcılığına aid olmayan fikri seçin.
- "Dirilən adam" romanı sərt ictimai mühit və o mühitdə olan insan arasındakı təzadı əks etdirib.
- Əsərlərinin birində bir obrazın simasında təsvir etdikləri əslində insanlığın manifesti kimi mənalandırılır.
- Zamanına görə dilə gətirilməsi çətin olan fikirləri "Yaşıdlarım" romanında ifadə etmişdir.
- Bədii yaradıcılığı daha çox epik əsərlərdən ibarətdir.
- Təhkiyənin aparıcı olduğu "Yolumuz hayanadır əsərində vətəndaşlıq qayəsi haqqında baxışlar əks edilib.

69. R.Rzanın dramatik növdə yazdığı əsəri hansıdır?
- “Qızılgül olmayaydı”
- “Leyla”
- “Vəfa”
- “İntiqam!”
- “Bəxtiyar”

70. M.C.Paşayevin bu romanı yazıçının avtobioqrafik romanı hesab olunur:
- “Dirilən adam”
- “Açıq kitab”
- “Təzə şəhər”
- “Yaşıdlarım”
- “Yolumuz hayanadır”

71. Çingiz Aytmatovun “Gün var əsrə bərabər” əsərinin məzmunu ilə bağlı verilənlərdən biri yanlışdır.
- Əsər Sovet İmperiyasının dağılmasından sonra xalqların xoşbəxt yaşamasından bəhs edir
- Dəfn mərasiminin təsvirində türk xalqlarının mərhumla vidalaşmaq ayini öz əksini tapır
- Vəfat etmiş dostunun vəsiyyətinə əməl edərək onu Ana-Beyitə aparan Yedigey hər bir hadisəyə insanlıq və vicdan meyarı ilə yanaşır
- Yazıçı Sabitcanın, Tansıkbayevin simalarında öz dilini, adət-ənənələrini unudanlara öz nifrətini bildirir
- Əsərin sonunda Nayman-Ananın yaylığının ağ quşa çevrilməsi gələcəyə nikbin baxmağın vacibliyini ifadə edir

72. B.Vahabzadənin tarixi pyeslərini müəyyən edin: 1. “Vicdan” 2. “Fəryad” 3. “Yağışdan sonra” 4. “Dar ağacı” 5. “Yollara iz düşür” 6. “Özümüzü kəsən qılınc”
- 2,4,6
- 1,3,5
- 3,6
- 1,3
- 1,2,5

73. Bu misralar R.Rzanın hansı şeirindəndir? Belə məğrur dayanmaqda haqlıyam, Mən kökümlə bu torpağa bağlıyam.
- “Bu gün”
- “Qanadlar”

- “Mən torpağam”
- “Çinar”
- “Bolşevik yazı”

74. Hüseyn Cavidin həyatı ilə bağlı səhv cavabı göstərin:
- Kiçik yaşlarından ticarətlə məşğul olmuşdu.
- Mollaxanada ərəb və fars dillərini öyrənmişdi.
- Naxçıvanda açılan “Tərbiyə” məktəbində təhsil almışdı.
- Şərq tarixi və ədəbiyyatını mənimsəmişdi.
- Tələbəlik dövründə dərgilərdə bir neçə əsəri dərc olunmuşdur.

75. Əhməd Cavadın yaradıcılığı ilə bağlı doğru fikirləri seçin: 1. “Çırpınırdı Qara dəniz” şeirinin müəllifidir. ; 2. 1882-ci ildə Naxçıvanda dünyaya gəlib. ; 3. “İblis” faciəsinin müəllifidir. ; 4. Pedaqoji fəaliyyətlə məşğul olmuşdur. ; 5. 1920-ci illərdə bir neçə dəfə bəhanələrlə həbs olunmuşdur. ; 6. 1911-ci ildə Şamaxıda dünyasını dəyişmişdir.
- 2,3,6
- 1,4,5
- 1,3,6
- 2,4,5
- 1,4,6

76. Hüsyn Cavidin həyatı ilə bağlı doğru cavabı göstərin:
- Cənubi Azərbaycan ədəbiyyatının nümayəndəsidir.
- Qori Müəllimlər Seminariyasında təhsil almışdır.
- Təbriz şəhərində dünyaya gəlmişdir.
- Təbrizdəki “Talibiyyə” məktəbində təhsil almışdır.
- Dünya görüşünün inkişafında rus şairlərinin rolu böyük olmuşdur.

77. Cəfər Cabbarlı haqqında doğru fikirləri seçin: 1. Sovet Yazıçılarının Birinci Ümumittifaq qurultayında iştirak etmişdi. ; 2. Satiralarında xalqın azadlığını və tərəqqisini ürəkdən arzulayırdı. ; 3. Dumaya ümid bəsləyib təbliğat aparanlara incə şəkildə kinayə edirdi. ; 4. A.Şaiq və S.S.Axundov müəllimləri olmuşdur. ; 5. Satirik şeirləri “Babayi Əmir” satirik jurnalında çap olunmuşdur.
- 1,3,5
- 1,2,3
- 2,3,5
- 3,4,5
- 1,4,5

78. Məntiqi ardıcıllığı tamamlayın: “Nə yazım?”, “Unudulmuş sevda” ___ Əhməd Cavadın hansı mövzuda olan şeirlərinə aiddir?
- “Dilimiz”
- “Al bayraq”
- “Quşlara”
- “Qardaş”
- “Olsun qoy”

79. İ.Şıxlının kitablarını müəyyən edin. 1. “Namərd güəlləsi” 2. “Ölüləri qəbiristanda basdırın” 3. “Namus qaçağı” 4. “Məni itirməyin”
- 1,2
- 2,3
- 1,4

- 2,4
- 1,3

80. Ç.Aytmatovun “Gün var əsrə bərabər” əsərindəki obrazları müəyyən edin. 1.Yedigey 2.Cəmilə 3.Sabitcan 4.Ədilbəy 5.Qazanqap 6.Baytemir
    - 1,3,6
    - 2,3,4
    - 1,3,5
    - 2,4,6
    - 3,4,5

81. H.Cavidin əsərlərindən hansı poema janrındandır?
    - “Maral”
    - “Azər”
    - “Afət”
    - “Şeyda”
    - “Ana”

82. “Molla Nəsrəddin” jurnalının redaktoru kim olmuşdur?
    - Əhməd Cavad
    - Mirzə Ələkbər Sabir
    - Cəlil Məmmədquluzadə
    - Əli bəy Hüseynzadə
    - Əbdürrəhim bəy Haqverdiyev

83. “Oqtay Eloğlu” əsərindəki Firəngiz surəti ilə bağlı səhv cavabı göstərin:
    - Firəngiz Oqtayı sevmədiyi üçün ayrılır
    - Aslan bəy Firəngizi şəxsi mənafeyinə qurban verir
    - O səhnəyə can atan ilk qaranquşdur
    - Firəngizi bədbəxt edən mühitdir
    - Firəngiz Aslan bəyin təkidi ilə Qktaydan ayrılır

84. C.Cabbarlı bu əsəri ilə öz mənəvi böhranını tamamlamışdır:
    - “Ədirnə fəthi”
    - “Od gəlini”
    - “Sevil”
    - “Yaşar”
    - “Almaz”

85. R.Rza şeirlərinin birində “O kəs ki, torpağa, xalqa bağlıdır, kökü xalq mənəviyyatının dərinliklərindədir, onu əymək olmaz” qənaətinə gəlir:
    - “Rənglər”
    - “Vətən”
    - “Bu gün”
    - “Çinar”
    - “Pəncərəmə düşən işıq”

86. “Açıq kitab” romanının mövzusu ilə bağlı doğru olan fikri müəyyən et:
    - Əsas hadisələrin Cənubi Azərbaycanda baş verdiyi təsvir olunur
    - XIX əsrin sonlarında Azərbaycan kəndlisinin ümumiləşdirilmiş taleyi əks olunmuşdur
    - Azərbaycan insanının tale romanı adlanır
    - Yüksək ideya-bədii keyfiyyətləri ilə seçilən satirk romandır

- C.Məmmədquluzadənin, N.Nərimanovun obrazları əsərdə yer alıb

87. Bəndlərdən birini seçməklə sıranı davam etdirin: “Şairin andı”, “Fanar”, ___.
    - “Muğan”
    - “Aygün”
    - “Şairin ölümü”
    - “Könül dəftəri”
    - “Dar ağacı”

88. H.Cavidin yaradıcılığı ilə bağlı düzgün fikirləri müəyyən edin: 1."İlk bahar" şeiri "Çoban türküsü" şeirindən fərqli olaraq, nikbinliyi ilə seçilir. 2. "Hərb və fəlakət" şeirində "İblis" əsərində olduğu kimi, müharibəyə nifrət hissi duyulur. 3. "Hübuti-Adəm" əsərində olduğu kimi, "Azər" əsərində də hadisələr yalnız təsvirlə çatdırılır. 4. "Ana" əsərindən fərqli olaraq, "Şeyda" əsərində hadisələr Azərbaycanda baş verir.
    - 1,2
    - 1,3
    - 2,4
    - 3,4
    - 1,4

89. "Xurşidbanu Natəvan" (İ.Əfəndiyev) əsərindən götürülmüş nümunəni Natəvana kim söyləyir: “___ Mən azərbaycanlıların igidliyinə heyranam. Elə bil ki Allah özü də onların qəhrəmanlığını gözəl Qarabağ atları ilə mükafatlandırıb. Ancaq, təəssüf ki, belə cəsur xalqın yarısı sizdən ayrı düşüb.”
    - Hidayət xan
    - Seyid Hüseyn
    - Canişin
    - Knyaz Xasay
    - İran şahının elçisi

90. İ.Şıxlının hansı hekayəsi müharibə mövzusundadır?
    - “Mənim rəqibim”
    - “Sapı özümüzdəndir”
    - “Məleykə xala”
    - “Kerç sularında”
    - “Ayrılan yollar”

91. Bunlardan ikisi Şəhriyarın şeir kitabıdır: 1. “El bülbülü” 2. “Ruh və Pərvanə məsnəvisi” 3. “Atamın matəmində” 4. “Tanrının səsi” 5. “Doktor Cavad da getdi”
    - 2,3
    - 1,5
    - 2,4
    - 3,4
    - 4,5

92. Ə.Cavdın Cümhuriyyət dövründə qələmə aldığı əsərlərinin sırasında verilə bilməz:
    - “Can Azərbaycan”
    - “Azərbaycan bayrağına”
    - “Quşlara”
    - “Qardaş”
    - “Al bayraq”

93. S.Vurğunun "Vaqif" dramındakı Vaqif obrazının xüsusiyyətlərindən biri yanlışdır:
- Sarayda yaşasa da, hər zaman xalqına bağlıdır.
- Müdrik bir vəzirdir.
- İbrahim xanın küsüb getməsindən sarsılır.
- Qacarın hüzurunda ona baş əymir.
- Azərbaycanın şərəfini təmsil edən bir insandır.

94. Variantlardan birini seçməklə sıranı tamamlayın: "Şairin andı", "Fanar" ___.
- "Şəfqət bacısı"
- "Aygün"
- "Şairin ölümü"
- "Ananın öyüdü"
- "Könül dəftəri"

95. C. Məmmədquluzadənin tragikomediyalarını müəyyən edin: 1."Ölülər", 2."Kamança", 3."Anamın kitabı", 4."Danabaş kəndinin məktəbi", 5."Dəli yığıncağı", 6."Çay dəstgahı", 7."Oyunbazlar", 8."Kişmiş oyunu".
- 1,3,5
- 2,4,6
- 3,5,8
- 2,5,7
- 4,6,8

96. Məntiqi ardıcıllığı tamamlayın: N.Nərimanov S.S.Axundov S.M.Qənizadə ___ .
- H.Cavid
- C.Məmmədquluzadə
- R.Əfəndiyev
- A.Sur
- M.Ə.Sabir

97. "İblis" əsərinin məzmunu ilə bağlı hansı fikirlər doğrudur? 1. İbn Yəminin olduğu yerlərin birində İblis xidmətçi qiyafəsində idi. 2. İbn Yəmin həbs edilən an Rəna otaqda deyildi. 3. İblis Arifin üzünə qarşı deyir ki, səni bir yığın fəlakət gözləyir. 4. Xavər Arifi sevmədiyinə görə öldürülür 3. Rəna pula görə kimisə öldürməyi insan üçün ləkə hesab edir.
- 2,3,5
- 1,3,4
- 3,4,5
- 1,3,5
- 1,2,5

98. Əsərlərdən biri M.Cəlalındır:
- "Mehman"
- "Saçlı"
- "Şamo"
- "Aynalı"
- "Açıq kitab"

99. M.Şəhriyarın hansı poemasında İkinci dünya müharibəsi ilə bağlı hadisələrə yer verilmişdir?
- "Şeir və hikmət"
- "Qardaşım oğlu Huşəngə"
- "Nişapurda günəş batarkən"

- “Gözüm aydın”
- “Stalinqrad qəhrəmanları”

100. Bu şairi cumhuriyyət nəğməkarı adlandırırlar.
- R.Rza
- S.Vurğun
- Ə.Cavad
- S.Rüstəm
- M.Müşfiq

101. C.Məmmədquluzadə “Çay dəstgahı” dramını nə vaxt və harada yazmışdır?
- 1894-cü ildə, Baş Noraşendə müəllim işləyərkən
- 1887-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
- 1892-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
- 1892-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
- 1889-cu ildə, Baş Noraşendə müəllim işləyərkən

102. Mir Cəlalın romanları sırasında verilə bilməz:
- “Yaşıdlarım”
- “Yolumuz hayanadır”
- “Bir gəncin manifesti”
- “Pillələr”
- “Açıq kitab”

103. Bu şeir R. Rzanı ədəbiyyat aləmində tanıtdırmış və onun yaradıcılıq manifesti kimi qiymətləndirilir:
- “Vətən”
- “Çapey”
- “Bu gün”
- “Çinar”
- “Bolşevik yazı”

104. İ.Əfəndiyevin ilk hekayələr kitabı:
- “Söyüdlü arx”
- “Üçatılan”
- “Kənddən məktublar”
- “Unuda bilmirəm”
- “Aydınlıq gecələr”

105. C. Cabbarlımın "Oktay Eloğlu" əsərindəki Oktay obrazı ilə bağı verilənlərdən biri səhvdir
- Romantik qəhrəmandır.
- Millət, sənət və teatr idealının daşıyıcısıdır.
- Öz idealı uğrunda mübarizədə ciddi çətinliklərlə qarşılaşır.
- Yeniliyi sözdə qəbul edənlərdəndir.
- Həqiqətsizlik böhranı keçirir.

106. "Qızılgül olmayaydı" (R.Rza) poemasına əsasən yanlış fikirləri seçin: 1. Əsərdəki şairə obrazı həmin dövrün represiya qurbanları xanımlarının ümumiləşdirilmiş surətidir. 2. Poemada Müşfiqin yeni, mübariz milli poeziya uğrunda narahat baxışları barədə dolğun təsəvvür yaradılır. 3. Bir gecədə insanların başına gələ bilən faciədən necə solmaqlarına da yer verilib. 4. Özünü məzəmmət edən müəllifin simasında həmin dövrdə rejimə qarşı səsini çıxarmayanlar qınanılır. 5. Dilbərin müəllifə olan qınayıcı nəzərləri, sükutu müəllifi çox təsirləndirir.

- 2,3,5
- 1,4,5
- 1,2,5
- 1,3,4
- 2,3,4

107. "Neylərdin, ilahi?!" (M.Ə.Sabir) satirasına əsasən doğru fikirləri seçin: 1. Əkinçilərin yaşadığı təzadlı məqama yer verilib. 2. Cəhalətin bütün aləmdə hökm eyləməsi əsərin problemli məqamlarından biridir. 3. Millətin qəmini çəkən bəyzadələr olmadığından uşaqlar aclıqdan əziyyət çəkir. 4. Mədəniyyətə, maarifə könül verənlərin müsəlmanları iki qrupa bölməsindən danışılır. 5. Xalqın əksəri avamdır fikri bu əsərə də aid edilə bilər.

- 1,3,5
- 2,3,4
- 1,3,4
- 1,2,5
- 2,4,5

108. Mir Cəlalın yaradıcılığı ilə bağlı hansı fikir doğru deyil

- Ali təhsilini Bakıda, aspirantura təhsilini Kazanda alıb
- “Dirilən adam” ilk iri həcmli əsəridir
- Publistikasında oçerklər üstünlük təşkil edir
- 100illik yubileyi YUNESKO səviyyəsində qeyd olunub
- “Yaşıdlarım” romanı avtobioqrafik əsər təsiri bağışlayır

109. Oqtayın (“Oqtay Eloğlu”) xarakterinin, həyata baxışının açıqlanmasında kimlə söhbətləri əhəmiyyətli rol oynayır?

- Firəngizlə
- Xaspoladla
- Şəkinski ilə
- Aslan bəylə
- Səməd bəylə

110. “S.Vurğun ___ ildə çap etdirdiyi ___ əsərində yeni dövrə qədəm qoyduğunu elan etdi”. Nöqtələrin yerinə uyğun gələn ili və əsəri müəyyən edin.

- 1935-ci il, Şairin andı”
- 1932-ci il, “Fanar”
- 1930-cu il, “Şairin andı”
- 1931-ci il, “Ölən şeirlərim”
- 1935-ci il, “Şairin ölümü”

111. Füyuzatçılarla bağlı doğru cavabı seçin: 1.Romantizm ədəbi məktəbini yaratmışdılar. 2.Ə.Haqverdiyev, C.Məmmədquluzadə, Ə.Qəmküsar, M.Ə.Sabir bu ədəbi məktəbin nümayəndələri idi. 3.Sonet, marş, türkü kimi janrları Azərbaycan ədəbiyyatına gətirmişdilər. 4.“Füyuzat” jurnalının ətrafında toplaşmışdılar. 5.Cəmiyyətdə olan nöqsanları tənqid edən əsərlər yazırdılar.

- 3,4
- 2,5

- 1,2,5
- 1,3,4
- 1,4,5

112. Mövzusuna görə aşağıdakı adları qeyd edilən hansı əsər "Əkinçi" şeirinə yaxındır?
- "Bizə nə?!"
- "Dilənçi"
- "Ağlaşma"
- "Səbr eylə"
- "İstiqbalımız lağlağıdır"

113. "Oqtay-Eloğlu" pyesində qadın surətləri sırasında verilə bilməz.
- Nadya
- Səriyyə
- Firnəgiz
- Tamara
- Nərgiz

114. Əhməd Cavad hansı əsərinə görə həbs olunmuşdur?
- "Quşlara"
- "Kür"
- "Pambıq"
- "Göygöl"
- "Ey axund"

115. İ.Şıxlının yaradıcılığı ilə bağlı səhv fikri müəyyən edin.
- "Cəbhə gündəlikləri" əsəri əsgər qeydləri əsasındadır
- Yaradıcılığının şah əsəri "Dəli Kür" romanıdır
- İlk nəşr olunan əsəri lirik növdədir
- Bədii yaradıcılığa şeirlə başlamışdır
- "Ayrılan yollar" hekayə janrında yazılmışdır

116. "Qızılgül olmayaydı" poeması ilə bağlı yanlış fikirdir.
- Poemada müəllif təhkiyəçi kimi çıxış edir.
- Müəllifin səmimi etirafları, özünügünahlandırmaları bəzən oxucu üçün gözlənilməz olur.
- Əsər 1963-cü ildə çap olunsa da, xeyli əvvəl yazılmışdır.
- Əsərdə Füzuli, Sabir, Bayron, Puşkin, X.Natəvan kimi sənətkarların da adları çəkilir.
- Repressiya dövrünün sərt üzü, yaradıcı insanların işgəncələrə məruz qalmasından danışılır.

117. "Türkün dili tək sevgili, istəkli dil olmaz, Şair ola bilməzsən, anan doğmasa şair!". "Türkün dili" adlı şeirdən götürülmüş bu misraların müəllifini göstərin:
- M.Hadi
- M.Şəhriyar
- M.Müşfiq
- A.İldırım
- H.Cavid

118. C.Məmmədquluzadə yaradıcılığa hansı əsəri ilə başlamışdır?
- "Çay dəsgahı"
- "Dəli yığıncağı"

- “Danabaş kəndinin əhvalatları”
- “Kamança”
- “Ölülər”

119. R.Rzanın müharibə mövzusunda yazdığı əsərlərini seçin: 1.“Vətən”, 2.“Bu gün”, 3.“Bəxtiyar”, 4.“Çinar”, 5.“Vəfa”, 6.“Haray dostlar”.
- 1,3,5
- 2,4,6
- 1,4
- 3,4,5
- 2,6

120. M.Ə.Sabir üslubunda yazanlar arasında Sabir ədəbi məktəbinin davamçıları kimlər idi?
- Məmməd Səid Ordubadi
- Məhəmməd Hadi
- Abbas Səhhət, H. Cavid
- Abdulla Şaiq
- Əli Nəzmi, Mirzə Əli Möcüz

121. R.Rzanın beynəlmiləl mövzuda yazdığı şeirlərini müəyyən edin: 1. “Madrid”, 2. “Çinar”, 3.“Bu gün”, 4. “Almaniya” 5.“Haray dostlar” 6.“Çapey” 7.“Həbəşistan”
- 2,3,5
- 1,4,5,7
- 1,3,6,7
- 2,4,6
- 2,3,5,6

122. "İblis (H.Cavid) faciəsinə əsasən yanlış fikri seçin:
- Əsərdə müxtəlif dramatik ünsürlərdən istifadə olunub.
- Mələk müharibələrin səbəbini İblisin insanları yönəltməyində görür.
- Arifin İblislə dialoqlarında tədricən onun tənəzzülə doğru getdiyi hiss olunur.
- Əsər dramatik növdə, faciə janrında yazılıb, süjet xəttində nəsrdən istifadə olunmayıb.
- Arif xaraktercə sabit obrazdır, sona doğru tam mənəvi çöküşünü yaşayır.

123. Hüseyn Cavidin Naxçıvanda dərs dediyi məktəbin adı nə idi?
- “Tərbiyə”
- “Talibiyə”
- “Rüşdiyyə”
- “Oğlanlar məktəbi”
- “Mollaxana”

124. Əhməd Cavad haqqında verilmiş səhv fikri göstərin:
- 1937-ci ildə həbsxanaya atılır, işgəncələrə məruz qalaraq dünyasını dəyişir.
- 1916-cı ildə “Qoşma” adlı ilk kitabı çap olunmuşdur.
- 1912-ci ildə “Qafqaz könüllüləri” tərkibində İstanbula türk qardaşlarımıza köməyə getmişdir.
- Dövlət himninin mətninin müəllifidir.
- 1918-1919-cu illərdə Naxçıvanda “Rüşdiyyə” məktəbində dərs demişdir.

125. “Səsli qız” poeması ilə bağlı səhv fikri göstərin:
- Əsərdə vətənə məhəbbət, müstəqil yaşamaq, işğalçılara nifrət təsvir olunur.
- Əsərdə məcazlardan istifadə edilmişdir.

- Sara qalib hökmdara “Ölkəmizin ulduzu” adı ilə təqdim edilir.
- Əsərin baş qəhrəmanı qızılın və içkinin təsirinə düşərək dəyişir.
- Poemanın baş qəhrəmanı Saradır.

126. Adları çəkilən əsərlərdən birinin müəllifi Cəlil Məmmədquluzadə deyil:
- “Anamın kitabı”
- “İblis”
